# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 189** **Bakı şəhəri, 18 may 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 27 yanvar tarixli 19 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi rabitə növlərindən istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

"Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərma-nında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 25 fevral tarixli 1605 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 27 yanvar tarixli 19 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 75) ilə təsdiq edilmiş "Xüsusi rabitə növlərindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci bənddə "Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin (bundan sonra – Agentlik)" sözləri "Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (bundan sonra – Xidmət)" sözləri ilə əvəz edilsin.

**2.** 2.6-cı və 2.9-cu bəndlərdə "Agentliyin" sözü "Xidmətin" sözü ilə, 2.8-ci bənddə "Agentlik" sözü "Xidmət" sözü ilə əvəz edilsin.

**3.** 2.7-ci bənddə "Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin" sözləri "Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2022.- 20 may.- S.8.